**UOT 101.1**

**Aytən CƏFƏROVA**
*Doktorant, Azərbaycan Universiteti*

# MÜASİR GENDER TƏHSİLİNİN NƏZƏRİ – METODOLOJİ ƏSASLARI *

Qərbdə, əsasən, XX əsrin 70-ci illərindən başlayaraq ortaya çıxan gender nəzəriyyələrinin və metodologiyasının (Robert Stoller. 'Sex and Gender' 1968, Ann Oakley 'Sex, Gender and Society' 1972) inkişafı nəticəsində gender tədqiqatlarının bir çox sahələri yaranmışdır (gender psixologiyası, gender sosiologiyası, gender linqvistikası, gender fəlsəfəsi, gender pedaqogikası və s.) [1, s. 33]. XX əsrdə F. Paulsen, O. Veyninger, Q. Qeysman, M. Mid, Z. Freyd, M. Kleyn, K. Horni kimi bir sıra tədqiqatçılar cins və cinsi identiklik ilə bağlı maraqlı tədqiqatlar ortaya qoymuşlar. XX əsrin 50 - 80-ci illərində pedaqoji məsələlərin cinsi baxımdan eksperimental tədqiqi sahəsində S. Bem, E.Makkobi, M. Horner, N. Xodorov, K. Gilliqan kimi tədqiqatçıların rolu böyük olmuşdur.

Gender tədqiqatları çərçivəsində "gender" sosial konstruksiya kimi dəyərləndirilir. O, fərdin sosiallaşması prosesində kənar təsirlər (ailə, məktəb, əmək kollektivi, dövlət və s.) və təsir mexanizmləri (təlim, tərbiyə, mədəniyyət, ideologiya, norma, dəyər) vasitəsilə formalaşdırılan və özünü onun idrak, duyğu, davranış ölçülərində büruzə verən "sosial cins" identikliyidir. Bu baxımdan, fərdin timsalında birləşən sosial cins və bioloji cins identiklikləri əksər hallarda bir-biri ilə ziddiyyət təşkil edir. Bu isə şəxsiyyətin özünüdərkinə və onun formalaşmasına mənfi təsir göstərir.

Gender tədqiqatlarının və onun yeni sahələrindən biri olan gender pedaqogikasının meydana çıxmasının öz sosial-tarixi səbəbləri vardır. Feminizm hərəkatı, XIX əsrin ortalarından başlayaraq qadın hüquqları uğrunda mübarizə zəminində siyasi-ideoloji bir hərəkat kimi, cəmiyyətdə sosial-siyasi və sosial-mədəni məsələləri özünəməxsus şəkildə araşdıran elmi-fəlsəfi bir cərəyan kimi ortaya çıxmasaydı, bu gün gender tədqiqatlarından, gender pedaqogikasından bəhs etmək mümkün olmazdı. Çünki bu təlimlərin nəzəri əsaslarını feminizmin fəlsəfi-ideoloji ideyaları təşkil edir. Onun fəlsəfi və siyasi-ideoloji nəzəriyyələrinin əsası klassik, postklassik və xüsusilə post-neoklassik araşdırmalar çərçivəsində inkişaf etmişdir. Lakin bir çox nəzəri-ideoloji məsələlərə fərqli yanaşmalar feminizmin müxtəlif istiqamətlərə bölünməsinə (liberal feminizm, sosialist-marksist feminizm, radikal feminizm, psixoanalitik feminizm, postmodern feminizm və s.) şərait yaratmışdır.

Postmodern fəlsəfə və psixologiya ilə tanış olmadan gender konsepsiyalarını anlamaq mümkün deyildir. Gender tədqiqatları fənlərarası əlaqə kontekstində inkişaf etdiyi üçün sinergetik xarakterə malikdir. Gender metodologiyası vasitəsilə ortaya çıxarılan "sosial cins" kateqoriyası [2, s.14] cəmiyyətin və mədəniyyətin tamamilə yeni bir müstəvidə araşdırılmasına və fərqli yanaşmalar nümayiş etdirilməsinə imkanlar yaradır. Cəmiyyət və mədəniyyət kontekstində olan bütün fenomenlər (ailə, təhsil, elm, din) gender metodologiyası çərçivəsində öz yeni fəlsəfi anlamını qazanır. Bu baxımdan, gender tədqiqatları əksər sosial elm sahələrini özündə birləşdirir.

Son dövrdə post-neoklassik nəzəriyyələrin aktuallaşması müstəvisində pedaqogika sahəsinin genderoloji tədqiqi aktuallaşmış və təlim-tərbiyə, sosiallaşma məsələlərini fərqli bir müstəvidən araşdıran müasir "gender pedaqogikası" anlayışı ortaya çıxmışdır. O, qız və oğlanların imkanlarının reallaşma şərtlərini təqdim edən təlim-tərbiyə prosesinin yeni metod və konsepsiyalarından ibarətdir. Gender pedaqogikası cinslərin özünüidentikləşdirməsinə və

* Məqalə fəlsəfə ü.f.d. Rauf Məmmədov tərəfindən çapa məsləhət görülüb.

sosiallaşmasına xidmət edən, onların qlobal sosial-iqtisadi və mədəni dəyişikliklərə uyğunlaşmasını təmin edən, şəxsiyyətin daxili potensialını maksimum şəkildə üzə çıxaran müasir təhsil sistemidir [3, s.21].

Təhsilin cəmiyyətin həyatında və ictimai şüurda oynadığı rolu nəzərə alsaq deyə bilərik ki, gender pedaqogikasının praktiki tətbiqi cəmiyyət münasibətlərində və ictimai şüurda yeni bir mərhələnin başlanğıcını qoyur. Bu yeni yanaşmada təhsil prosesinin ənənəvi modelləri öz funksiyasını itirir və təhsilin gender simmetriyasına əsaslanan yeni idarəetmə modelləri ortaya çıxır. Bu yeni modellərə əsaslanan təhsil sistemi cəmiyyətə yeni sosial rollar, fərqli sosial-mədəni yanaşmalar təqdim edir.

Gender pedaqogikası da təhsil sahəsinin gender metodları ilə tədqiqi nəticəsində ortaya çıxmışdır. Araşdırma nəticələri göstərir ki, patriarxal ideologiyaya əsaslanan ənənəvi təhsil prosesində cinslərin insan hüquqlarının pozulması və şəxsiyyətin formalaşması ilə bağlı kifayət qədər problemlər mövcuddur. Gender bərabərsizliyi və neqativ gender stereotipləri ilə bağlı mövcud problemlərin ortadan qaldırılması üçün maarifləndirmə ilə yanaşı, ənənəvi təhsil sistemində gender pedaqogikasının yeni metodlarının tədris prosesinə, tədris vəsaitlərinə və təhsil idarəetmə sisteminə tətbiq olunması məsələsi gündəmə gəlmişdir.

Təhsilin gender problemlərinin fəlsəfi təhlilini aparmaq üçün feminizmin nəzəri-metodoloji konsepsiyalarının tədqiqi vacibdir. Çünki bu konsepsiyalar müasir gender təhsilinin nəzəri-metodoloji əsaslarını təşkil edir. Bu nəzəriyyələri öyrənmədən nə gender, nə də gender təhsili fenomenlərini anlamaq mümkün deyildir.

Gender pedaqogikası mədəniyyət və fərdi inkişaf məsələsinə qarşılıqlı əlaqə kontekstində baxır. Fərd bu təhsil prosesində özünün mədəniyyətə fərdi baxışını müəyyənləşdirmək və özünü fərqli bir aspektdən dərk etmək imkanını əldə edir.

Gender pedaqogikasının metodoloji əsaslarını aşağıdakı yanaşmalar təşkil edir:

- şəxsiyyətin təkmilləşdirilməsinin və özünü reallaşdırmasının səmərəli şərtlərini ifadə edən androqoniya təlimi (S. Bem);
- şəxsiyyətin təkmilləşdirilməsinin mədəni-tarixi nəzəriyyəsi (A. Leontyev, L. Vıqotski, A. Luriya və s.);
- mədəniyyətin, cinsin, cinsəlliyin və biliyin konstruktiv təbiətə malik olduğunu dəstəkləyən postmodernist yanaşma;
- pedaqoji antropologiya – tərbiyənin fəlsəfi bazası kimi (B. Bim-Bad);
- fərdin gender identikliyinin konstruksiyası və rekonstruksiyası prosesinin fasiləsizliyi;
- gender sosialllaşması prosesində uşağın və cəmiyyətin münasibətləri [4, s.88].

Gender pedaqogikası "gender sistemi - gender mədəniyyətinin təşkil forması kimi", "cəmiyyət, cins, gender" və "məktəbin fəaliyyətinə və pedaqoji kadrların hazırlanmasına gender yanaşmasının tətbiqi yollarının araşdırılması" ilə bağlı üç konseptual yanaşmanı ehtiva edir:

- "Cəmiyyət, cins, gender" kontekstində gender kateqoriyalarının araşdırılması;
- "Gender sistemi gender mədəniyyətinin təşkili forması kimi" konseptual yanaşmasında ailənin və pedaqoji kollektivin gender mədəniyyətinin təşkili formaları və gender sisteminin tədqiqi;
- "Məktəbin fəaliyyətinə və pedaqoji kadrların hazırlanmasına gender yanaşmasının tətbiqi yollarının (metod və metodologiyasının, strategiya və taktikasının) araşdırılması" ilə bağlı konseptual yanaşmasında pedaqoqların gender identikliyinin formalaşmasında yeri və rolu, gender sosiallaşması və resosiallaşmasında məktəb fəaliyyətinin yeri və rolu, pedaqoji mühitin gender identikliyinə təsiri, şəxsin gender xüsusiyyətləri nəzərə alınmaqla təlim-tərbiyə prosesinin təhlili nəzərdə tutulur.

Araşdırmalarda gender sosiallaşması üç səviyyədə (makrososial, fərdlərarası münasibətlər və fərdi) təhlil edilir:

1. Makrososial təhlil - cinsi əlamətə və onun üzərində formalaşan mədəni normalara görə sosial funksiyaların differensial şəkildə tədqiq olunmasıdır. Burada fərdlərarası əlaqə metodlarından istifadə olunmqla, qadın və kişinin sosial vəziyyəti (sosial statusları, fəaliyyət növləri, kütləvi təsəvvürlər və s.) təhlil olunur.

2. Fərdlərarası münasibətlərin təhlili – sosial-psixoloji metodlar əsasında qruplararası əlaqələrin araşdırılmasını təmin edir.

3. Fərdi təhlil - psixologiya metodları əsasında fərdin rasional (həyat təcrübəsi) və irrasional (stereotiplər) şəkildə davranışlarında əks olunan cinsi rolunu araşdırmaqdır [5, s. 21-22].

Təhsil sahəsində gender ölçülərindən bəhs edərkən həm fərdin, həm də onun sosiallaşdığı təlim-tərbiyə mühitinin gender aspektlərinin tədqiqi nəzərdə tutulur. Çünki fərdin sosiallaşmasını təlim-tərbiyə mühitini formalaşdıran ailə və təhsil institutlarından kənarda təsəvvür edə bilmədiyimiz kimi, həmin institutların da formalaşmasını fərddən ayıra bilmərik. Fərdlər sosial-tarixi təkamül prosesində ötürülən mədəni ənənələr vasitəsilə həmin institutların xarakterini müəyyənləşdirirlərsə, həmin institutlar da bu mühitdə yetişən fərdlərin sosial davranış və normalarını müəyyənləşdirirlər.

Fərd-ailə-təhsil müəssisəsi üçlüyündə cərəyan edən sosiallaşma prosesinin tarixi dinamikası müxtəlif dəyişikliklərlə müşayiət olunan mədəniyyət fenomenini ortaya çıxarır. Buna görə də müasir gender təhsilinin əsas tədqiqat obyekti mədəniyyətin gender metodları əsasında araşdırılmasıdır. Çünki həm fərdin, həm də təhsil prosesinin inkişafı mədəniyyət fenomeni çərçivəsində baş verir və onun fövqünə çıxa bilmir. Lakin gender təhsili bunu bacarır. Bunun üçün, gender tədqiqatları fərdin sosiallaşmasını və onu formalaşdıran ailə-təhsil mühitinin xarakterini müəyyənləşdirmək məqsədilə yeni elmi yanaşma və kateqoriyalar ortaya qoymuşdur. Onlar çərçivəsində fərdin və onu formalaşdıran pedaqoji mühitin obyektiv xarakterini müəyyənləşdirmək mümkündür.

Gender tədqiqatlarında fərdin ailə-təhsil mühiti çərçivəsində gender sosiallaşması prosesi bir-birini müşayiət edən bir neçə mərhələdən keçir. Fərdin ilk dəfə ailədə formalaşan gender dünyagörüşü tədricən gender stereotiplərinə və oradan da gender rollarına çevrilir. Fərdin növbəti sosiallaşma mühiti olan tədris müəssisələri də mürəkkəb bir gender sistemi kimi, onun gender displeyi, gender identikliyi və gender müqaviləsi kimi mərhələlərdən keçməsini təmin edir.

Sxem 1. Fərdin gender sosiallaşması sxemi



Gender tədqiqatları çərçivəsində meydana çıxan kateqoriyalar metodoloji olaraq bütün sosial elm sahələrində tətbiq olunduğu kimi, gender pedaqogikası sahəsində də geniş tətbiq olunur [4, s. 88].

Fərdin gender sosiallaşması prosesi aşağıdakı kateqoriyalar çərçivəsində araşdırılır:

*Bioloji cins* - kişi orqanizmini qadından fərqləndirən biokimyəvi, anatomik, genetik, fizioloji amillərin vəhdəti üzərindəki fərqli cinsi identiklik formalarından (gender identikliyi, gender rolu, cinsi oriyentasiya, cinsi identiklik) biri və ən güclüsüdür. Ənənəvi təhsilin təlim-tərbiyə prosesində "cinsi tərbiyə" metodları "bioloji cins" identikliyi üzərində formalaşmışdır. Halbuki bioloji cinsə aid edilən sosial-mədəni keyfiyyətlər bioloji deyil, sosial-mədəni xarakter daşıyır. Buna görə də gender pedaqogikası ənənəvi təhsilin şəxsiyyətin formalaşmasına neqativ təsir göstərdiyini iddia edir.

*Sosial cins (gender)* – bioloji cinsə sosial-mədəni xüsusiyyətlər aşılayaraq, onların bir-birindən ayıran və diskrinimasiya edən sosial sistemə yeni yanaşma metodunun əsas kateqoriyasıdır. Bu kateqoriya vasitəsilə cəmiyyətin problemlərinin mahiyyətini, xüsusilə təhsil sahəsində olan problemlərin səbəblərini anlamaq mümkündür.

Dünyanın əksər yerlərində qadınların təhsil sektorunda say baxımından kişilərdən üstünlük təşkil etməsinə baxmayaraq, bu sektorun rəhbər vəzifələrində kişilərin sayı qadınlardan daha çoxdur. Çünki təhsil sahəsində məvaciblərin aşağı olması kişilərin bu sahəyə gəlməsinə mane olur. Təhsilin idarə olunması sahəsində rəhbər vəzifədə çalışan qadınlar da sosial cins baxımından öz bioloji cins rollarını oynaya bilmirlər. Tarixi-mədəni ənənələrlə ictimai şüurda formalaşan gender ölçülərinə və ya patriarxal ideala daha çox yaxınlaşan fərdlər cinsindən asılı olmayaraq özlərini deyil, cəmiyyətin onlara diktə etdiyi sosial cins rollarını oynayırlar. Bu ölçülər çərçivəsində rəhbər vəzifədə çalışan bioloji qadınlar (rektor, dekan) sosial cins baxımından kişidirlər (xalq arasında "kişi kimi qadındır" ifadəsi buradan irəli gəlir). Yaxud, ənənəvi patriarxal ölçülərlə uzlaşmayan bioloji kişilər də sosial baxımdan qadındırlar. Ənənəvi patriarxal "kişi" obrazı avtoritar liderlik, maddi zənginlik və güclülük elementlərindən təşkil olunubsa, bu sistemdə "qadın" obrazı deyilənlərin əksidir.

*Gender stereotipləri* – ailə, təhsil, mədəniyyət, KİV və digər yollarla ictimai şüurda qadın və kişi ilə bağlı yerləşdirilən təsəvvürlər, onların sosial rolları, sosial statusları, cinsi imkan və xüsusiyyətləri barədə olan məlumatlardır ki, onlar cinslərin gender davranışlarını müəyyənləşdirir.

Gender pedaqogikasının reallaşması və inkişafı ənənəvi gender stereotiplərinin, patriarxal gender paradiqmalarının tənəzzülü ilə mümkündür. Lakin bu dünyagörüşün təməlində dayanan paradiqmalar şüurlarda mədəniyyət vasitəsilə qəlibləşən stereotiplərə bağlıdır. Amerikalı tədqiqatçı U.Lipman bildirir ki, "stereotiplər–bütün duyğu prosesini qətiyyətlə idarə edən ön mühakimələrdir. Onlar, müəyyən obyektləri məlum və ya qeyri-məlum şəkildə qeyd edir və az məlum olanlar - yaxşı bilinən kimi, məlum olmayanlar isə tamamilə yad kimi tanınırlar" [**19. s. 50**].

Dövlət ideologiyasının, təhsilin və ailə tərbiyəsinin vasitəsilə qəlibləşən stereotiplərdən fərqli davranış nümayiş etdirənlər həmin sistem daxilində "ağ qarğa" timsalında tanınırlar. Əksinə, ona daha çox uyğunlaşanlar cəmiyyət tərəfindən təqdir olunurlar. Mənfi aqibətlə üzləşməmək üçün bir çoxları formal olaraq mədəniyyət və cəmiyyət tərəfindən diktə olunan gender rollarını ifa etmək məcburiyyətində qalırlar. Əslində, cəmiyyətin əksər üzvləri bu davranış və normaların mədəni ənənələr vasitəsilə ilə deyil, öz fərdi seçimləri ilə reallaşdığını düşünürlər. Gender pedaqogikasının əsas vəzifəsi yeni təlim-tərbiyə vasitəsilə fərdlərin mədəni ənənələrin fövqündə öz həyat tərzini və seçimini etməyə şərait yaratmaq və stereotiplərin ortadan qaldırılmasını təmin etməkdir.

*Cinsi rol stereotipləri* - mədəniyyət çərçivəsində formalaşan kişi və qadın obrazlarıdır. Bu obrazlar bir simvol kimi, mədəniyyət daxilində qadın və kişilər üçün bir nümunədir. Cinslərin ideallıq səviyyəsi, onların bu nümunəyə yaxınlıq dərəcəsinə görə müəyyənləşdirilir. Bu ideal obrazlar cəmiyyətdə cinslərin davranışlarını və sosial-mədəni normalarını təyin edir. Ənənəvi təhsil sistemində bu stereotiplər təlim-tərbiyə prosesində yaşadılır və şüurlara yeridilir. Bu proses həm rasional, həm də irrasional səviyyədə həyata keçirilir [6, s. 311].

Ailədə, məktəbdə, universitetdə bu stereotiplərlə formalaşan qızlar ətrafındakı oğlanları ənənəvi kişi idealına uyğunluq səviyyəsinə görə dəyərləndirdiyi kimi, oğlanlar da qızları eyni prinsiplə dəyərləndirirlər. Bu baxımdan, stereotiplər onlara gerçəkləri görməyə imkan vermir və onların reallıqdan deyil, şüurlarda formalaşan qeyri-real prizmadan ətraf aləmi dəyərləndirməsinə, bundan irəli gələn davranışların formalaşmasına səbəb olur. Yəni, fərd bu sistemdə öz düşüncələrinin əsirinə çevrilir və yerinə yetirdiyi rolun mahiyyətinə vara bilmir. Çünki onun yaşadığı cəmiyyət də onu bu davranış və normaların fövqünə çıxmağa imkan vermir və onu daima ənənəvi gender ölçüləri çərçivəsinə salır. Bu sistemdə olan təhsil sistemi də həmin funksiyanı yerinə yetirir. Peterson və Meylor tərəfindən tərtib olunan sxemdə cinsi identikliyin formalaşmasının amilləri və mexanizmləri aydın şəkildə verilmişdir.

**Sxem 2. Cinsi identikliyin formalaşmasının amilləri və mexanizmləri [7]**




*Gender rolları* – tarixi, sosial-mədəni irsdən irəli gələn gender stereotipləri əsasında kişi və qadınların davranışlarının qəbul olunmuş norma və modellərinin vəhdətidir. Bu norma və modellər təhsil sisteminin bütün sahələrində aşkar olunur. Pedaqoqların və təhsil menecerlərinin davranışlarında, dərsliklərin məzmununda bunu müşahidə etmək mümkündür.

*Gender displeyi* - cəmiyyətin kişi və qadınlar üçün öncədən müəyyənləşdirdiyi fəaliyyət və qarşılıqlı əlaqə normaları ilə bağlı olan təzahürlərin müxtəlifliyidir [8, s. 84]. Gender displeyi anlayışını elmə gətirən İ. Qofman onu cəmiyyət tərəfindən öncədən müəyyənləşdirilən kişi və qadın normalarından ortaya çıxan mədəni cinsiyyətin müxtəlif təzahürləri kimi səciyyələndirir [3, 35]. Bu təzahürlər müəyyən mənəvi xarakterli qadağa və istiqamətləndirmələr ilə məhdud çərçivədə müxtəlif seçimlər sistemi yaradır və insanları şüuraltı şəkildə cinsi rollarını ifa etməyə yönləndirir. Fərd bu çərçivədə "mən belə düşünürəm və belə əməl edirəm" mental konstruksiyasının fövqünə çıxa bilmir. Gender pedaqogikasının əsas məqsədi şagirdləri, tələbələri bu asılılıqdan azad etmək və onlara sərbəst düşünməyə şərait yaratmaqdır.

*Gender identikliyi* – sosiallaşma prosesində fərdin özünü konkret bir cins ilə eyniləşdirməsi, davranışlarını ona uyğun şəkildə tənzimləməsi və ona ətrafdakılar tərəfindən müvafiq münasibətin sərgilənməsidir.

Gender pedaqogikasının ən mühüm anlayışlarından olan gender identikliyi yalnız qız və oğlan identikliyi ilə deyil, digər identiklik formaları və onlar arasında olan sərbəst keçid mərhələləri ilə də əlaqələndirilir. Yəni yeni pedaqogika sahəsində fərdin gender identikliyinin plastik və dəyişkən xarakter daşıdığını, onun bu identiklik formalarından birini seçmək imkanı əldə etdiyini və istənilən zaman qəbul etdiyi identiklik formasını dəyişmək iqtidarında olduğunu nəzərə alsaq, mövcud pedaqogika istiqamətində sabit cinsi tərbiyədən bəhs oluna bilməz. Burada cinsi tərbiyə adı altında uşaqların öz cinsi identikliyini müəyyənləşdirmək üçün bərabər imkanların təqdim olunmasından və sərbəst seçimə mane olan ənənəvi stereotiplərin ortadan qaldırılmasından bəhs oluna bilər. Gender pedaqogikasının mühüm vəzifələrindən biri budur. Bu təhsil sisteminə görə, fərdin öz identikliyini müəyyənləşdirməyə yardım edən təhsil sistemi onun şəxsiyyətinin formalaşmasına xidmət edir.

Şagirdlərin gender identikliyinə təsir edən əsas amillər valideynlərin onlar barədə təsəvvür və gözləntiləri, təhsil prosesi, KİV-lər, mədəni mühit və həmyaşıdlarıdır (Diaqram 3).

Diaqram 3. Şagirdlərin gender identikliyinə təsir edən amillər [9]




**Mənbə:**

*Gender sistemi* - sosial gender rollarına yönləndirən müxtəlif norma və qaydaların üzərində formalaşan gender mədəniyyətinin təşkili formasıdır. Ən mürəkkəb gender sistemlərindən biri pedaqoji sistemdir. Bu sistemdə xüsusilə idarəetmədə olan qadınlar (direktor, sinif rəhbəri, rektor, kafedra müdirləri və s.) müxtəlif gender rollarına girmək məcburiyyətində qalırlar. Çünki qadın ənənəvi cəmiyyətdə öz ənənəvi rolunda çıxış etsə, kollektiv onu qəbul etməyəcəkdir. Kollektivin şüuru idarəetmə sistemini patriarxal ölçülərlə dərk edir. Rəhbər vəzifədə çalışan qadınlar bu ölçülərə uyğun gender rollarını yerinə yetirmədən uğur qazana bilməzlər. Bu baxımdan onlar transformasiya olunmaq məcburiyyətində qalırlar. Bunu eynilə bəzi kişilərə də aid etmək olar. Çünki elə kişilər də vardır ki, onların davranışları patriarxal ölçülərlə uzlaşmır və buna görə də onlar sosial həyatda fəal mövqe tuta bilmirlər. Təhsildə formalaşan bu gender sistemi çərçivəsində təlim-tərbiyə görən şagirdlər də mexaniki olaraq həmin ənənələrin

davamçısına çevrilirlər. Bu ənənənin ortadan qalxması və yeni gender sisteminin formalaşması üçün gender pedaqogikasının tətbiqi irəli sürülür.

*Gender müqaviləsi* - U. Hirdman tərəfindən irəli sürülən bu anlayış fərdin şüurunda sosial rol stereotipini formalaşdırır və fərd bu prizmadan çıxış edərək "belə olmalıdır" qənaətinə gəlir və onun gender identikliyi bu müstəvidə formalaşır. Gender müqaviləsi gender sistemini təşkil edən elementlərdən biri kimi dəyərləndirilir.

**Açar sözlər:** *gender tədqiqatları, stereotip, klassik, postmodernizm, feminizm, maskulin*

### İstifadə olunmuş ədəbiyyat

1. Абубикирова Н.И. Что такое «гендер»? / Общественные науки и современность. 1996, №6.
2. Коростылева Н.Н. Гендерный конфликт как разновидность социальных конфликтов: дис. … канд. филос. наук. Воронеж, 1998.
3. Цыганкова Г. П. Психология гендерного воспитания в высшем колледже. Учеб. - метод. пособие для студентов и кураторов учебных групп. Минск, 2009.
4. Ерофеева Н. Ю. Основные категории гендерной педагогики //Вестн. Удмуртского ун-та. Философия. Психология. Педагогика. Вып. 2. 2009.
5. Захарова С. Н. Гендерное воспитание детей и учащейся молодежи. Учеб. -метод. пособие / С. Н. Захарова, В. В. Чечет. – Минск: БГУ, 2011.
6. Бем С.Л. Линзы гендера: Трансформация взглядов на проблему неравенства полов / Пер. с англ. М.: Российская политическая энциклопедия (РОССПЭН), 2004.
7. Здравомыслова Е.А., Темкина А.А. Социальная конструкция гендера и гендерная система в России // Материалы Первой Российской летней школы по женским и гендерным исследованиям «Валдай-96». М.: МЦГИ, 1997.
8. http://studopedia.info/2-14066.html
9. http://domik-v-internete.ru/2012/02/gender_iden/#.WRn1TlWGPIU

**Айтен ДЖАФАРОВА**

## ТЕОРЕТИЧЕСКИЕ И МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ СОВРЕМЕННОГО ГЕНДЕРНОГО ОБРАЗОВАНИЯ

### Резюме

Гендерные работы являются неотделимой частью постмодернистского философского мировоззрения, поскольку относятся к междисциплинарной сфере, развивающейся в рамках пост неоклассических исследований. Эти исследования имеют своеобразный метод динамического подхода к проблемам общества, который формируется на основе категорий и теории «социального пола». Понятие «биологический пол» недостаточно для понимания сути социальных ролей и спецификаций в обществе, а с помощью категории «социального пола» можно проникнуть в глубинные слои социально-культурных, политико-экономических проблем. Сфера применения гендерного метода расширилась, поскольку он оправдывает себя с научной точки зрения.

**Ключевые слова:** *гендерные исследования, стереотип, классический, постмодернизм, феминизм.*

**Ayten JAFAROVA**

## THEORETICAL AND METHODOLOGICAL FOUNDATIONS OF MODERN GENDER EDUCATION

### Summary

Gender investigations being an interdisciplinary branch evolving within the framework of post neoclassic researches are considered part and parcel of the post modernist philosophic viewpoint.

The gender investigations have their specific, dynamic approach to a society problems solution.

This approach is formed on the theory and category of gender which means ‘social gender’. As concept of “biologic sex” is unable to encompass the interpretation of social functions and strategic classification essence of the society, the category of “social gender” enables to resolve in detail, socio-cultural, political and economic problems in the society.

Gender methodis has expanded its application aspects, in terms of scientific selfassertation.

**Keywords:** *gender research, stereotype, classic, postmodernizm, feminism, masculine.*